

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 229 (21.381)

*21 noyabr 2015-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Rusiya Federasiyasının təhsil və elm naziri Dmitri Livanovu qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin bütün istiqamətlərdə, o cümlədən təhsil sahəsində uğurla inkişaf etdiyini vurğulayıb. Prezident İlham Əliyev Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialında bu il artıq ilk buraxılışın olmasının və Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının ölkəmizdə fəaliyyətə başlamasının önəmini qeyd edib. Dövlətimizin başçısı təhsil sahəsində əməkdaşlığımızın digər formalarının müəyyənləşdirilməsinin zəruriliyini də qeyd edib.

Rusiya Federasiyasının təhsil və elm naziri Dmitri Livanov ölkələrimiz arasında təhsil sahəsində əməkdaşlığın inkişaf etdirilməsi işinə xüsusi diqqət göstərdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Görüşdə ölkələrimiz arasında təhsil sahəsində əlaqələrin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 20 noyabr tarixli Sərəncamı ilə ədliyyə orqanlarında qulluq keçərkən fərqləndiklərinə görə bir qrup ədliyyə işçisi təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşları da vardır.

**Əliyev Suliddin Abbas oğlu**

3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə

**Kazımov Emin Kazım oğlu**

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişlər.

## Yeni Azərbaycan Partiyasının yaradılmasının 23-cü ildönümü qeyd olunub



***Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatında partiyanın yaradılmasının 23 illiyi münasibətilə tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı İsa Məmmədov açaraq məruzə ilə çıxış etmişdir.***

Qeyd olunmuşdur ki, Yeni Azərbaycan Partiyası tarixi zərurətdən yaranmışdır. Ölkəmizin uçuruma sürükləndiyi, müstəqilliyimizi itirmək təhlükəsi ilə üz-üzə qaldığımız, iqtisadiyyatın tamamilə dağıldığı, aclığın, səfalətin hökm sürdüyü zaman xalqın son ümidinin, inamının ifadəsi kimi belə bir partiyanın yaranması və tarix səhnəsində öz sözünü deməsi zəruri idi. Məhz bu inam uğrunda mübarizənin nəticəsi kimi 1992-ci ilin 21 noyabrında muxtar respublikamızın paytaxtı Naxçıvan şəhərində Azərbaycanın hər yerindən gələn 550 nəfər nümayəndənin iştirak etdiyi təsis konfransında Yeni Azərbaycan Partiyası yaradılmışdır.

Bildirilmişdir ki, 30 yanvar 1993-cü ildə ulu öndərimiz Heydər Əliyevin iştirakı ilə Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının təsis konfransı keçirilmişdir. Bu gün Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının 112 ilk partiya təşkilatı fəaliyyət göstərir. Partiyanın rayon təşkilatı öz sıralarında 6644 nəfər partiya üzvünü birləşdirir.

Vurğulanmışdır ki, ötən müddət ərzində muxtar respublikamızda aparılan yenidənqurma, abadlıq, quruculuq tədbirləri, iqtisadiyyatın inkişaf etdirilməsi və əhalinin rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər qəlbimizi iftixar hissi ilə doldurur. Babək rayonu da bu proseslərdən kənarda qalmamış, rayonda kompleks quruculuq işləri aparılmış, iqtisadi və sosial sahədə yeni uğurlar qazanılmışdır. Rayon mərkəzi olan Babək qəsəbəsinin siması dəyişilmiş, müasir rayon mərkəzinə çevrilmişdir. Kənd yaşayış məntəqələrinin də böyük bir qismi abadlaşdırılmış, yeni yollar salınmış, kənd təsərrüfatı, təhsil, mədəniyyət, səhiyyə sahələrində mühüm tədbirlər həyata keçirilmişdir.

Tədbirdə Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Turan Məmmədli, təşkilatın şura üzvü Əli Hacıyev və başqaları çıxış etmişlər.

*Yeni Azərbaycan Partiyasının yaradılmasının 23-cü ildönümü muxtar respublikanın hər yerində olduğu kimi, Naxçıvan Dövlət Universitetində də silsilə tədbirlərlə qeyd olunub. Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi ilk təşkilatının keçirdiyi elmi-praktik konfransı universitetin Həmkarlar İttifaqı Komitəsinin sədri, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Elşən Məmmədov açıb.*

Qeyd olunub ki, partiya Azərbaycanın müstəqil dövlət quruculuğunda mühüm rol oynayıb. Bu gün Azərbaycanın beynəlxalq arenada böyük siyasi nüfuz qazanmasında, hərtərəfli inkişafında Yeni Azərbaycan Partiyasının əvəzsiz xidmətləri var.

Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi ilk təşkilatının sədri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Kamal Camalov "Yeni Azərbaycan Partiyası və Naxçıvan Dövlət Universiteti" mövzusunda məruzə edərək partiyanın ziyalı, vətənpərvər gəncliyin inkişafındakı müstəsna rolundan bəhs edib. Məruzəçi partiyanın 23 il bundan öncə yaradılan Universitet şəhərciyi ərazi ilk təşkilatının fəaliyyəti barədə ətraflı məlumat verərək qeyd edib ki, hazırda 1500-dən artıq siyasi həmfikri öz ətrafında birləşdirən təşkilatın sıralarında Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvləri, tanınmış alim-pedaqoqlar var. Təkcə son tədris ilində 136 nəfər partiyaya üzvlüyə qəbul edilib.

İqtisad elmləri doktoru, professor Nazim Əhmədov "Ulu öndər Heydər Əliyev və iqtisadi inkişaf modeli" mövzusundakı məruzəsində qeyd edib ki, müstəqil Azərbaycanın iqtisadi strategiyasının hazırlanması və müəyyənləşdirilməsi məhz Yeni Azərbaycan Partiyasının yaradıcısı, ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması, digər nəhəng beynəlxalq iqtisadi layihələrin həyata keçirilməsi partiyanın siyasi qələbələri üçün zəmin yaratmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Antalyada keçirilən "Böyük İyirmiliyin" Sammitindəki çıxışı da bir daha sübut edir ki, ölkəmiz artıq inkişaf etmiş dövlətlər sırasına daxil olmuş, digər nəhəng dünya dövlətlərinin iqtisadi-siyasi maraq dairəsinə çevrilmişdir.

Universitetin Mətbuat şöbəsinin əməkdaşı Mina Qasımova "Ümummilli lider Heydər Əliyev və Azərbaycan gəncliyi" adlı məruzəsində hazırda 600 mindən artıq üzvü olan Yeni Azərbaycan Partiyasının xalqın milli iradəsini ifadə edərək müstəqil dövlətimizin hərtərəfli inkişafının əsas qarantına çevrildiyini bildirmişdir. Məruzəçi Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin, Qadınlar Şurasının respublikanın ictimai-siyasi həyatındakı aparıcı rolundan danışmışdır.

Konfransın sonunda Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul edilmiş üzvlərə vəsiqələr təqdim olunmuşdur. Tələbə Teatr Studiyasının hazırladığı ədəbi-bədii kompozisiya maraqla qarşılanmışdır.

## Fövqəladə Hallar Nazirliyinə işə qəbulla bağlı test imtahanı

*Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada muxtar respublika Fövqəladə Hallar Nazirliyində VI-VII təsnifata uyğun vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün elan olunan müsabiqənin test mərhələsi keçirilib.*



Komissiyadan aldığımız məlumata görə, test imtahanında 13 nəfər iştirak edib, namizədlərə qanunvericilik üzrə 40, dünyagörüşü üzrə 15, informasiya texnologiyaları üzrə 15, məntiqi təfəkkürün yoxlanılması üzrə 30 sual olmaqla, 100 sual təqdim olunub. Test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirilmənin aparılması qaydaları inzibati vəzifələrin təsnifatı nəzərə alınmaqla komissiya tərəfindən müəyyən edilib. İmtahanın nəticələri haqqında məlumat komissiyanın rəsmi internet saytında yerləşdiriləcək. Test imtahanında mümkün olan baldan inzibati vəzifələrin VI-VII təsnifatlarına uyğun olan vəzifələr üzrə ən azı 75 faizini toplamış namizəd imtahanı müvəffəqiyyətlə vermiş hesab edilir. Test imtahanından müvəffəqiyyətlə keçənlər sənədləri 10 iş günü ərzində komissiyaya təqdim edəcək və müsahibə mərhələsinə buraxılacaqlar. Müsahibə sənədlərin qəbulu başa çatdıqdan sonra 30 gün ərzində keçiriləcək.

Məlumatda o da bildirilib ki, qanunvericiliklə başqa qayda nəzərdə tutulmadıqda, müsabiqədən müvəffəqiyyətlə keçmiş namizədlər vakant vəzifəyə təyin edilmək üçün 5 iş günü müddətində dövlət orqanının rəhbərinə təqdim olunurlar. Dövlət orqanının rəhbəri təqdim olunmuş namizədləri seçərək bir il müddətinə stajçı kimi qulluğa qəbul etməli və vakant vəzifəyə təyin etməlidir. Dövlət orqanının rəhbəri namizədlərin təqdim olunduğu gündən 10 iş günü müddətində qəbul etdiyi müvafiq qərar barədə müvafiq orqana məlumat verməlidir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində Naxçıvan Dövlət Universitetində Hüquqşünaslıq ixtisası üzrə təhsil alan IV kurs tələbələri ilə görüş keçirilib.***

## Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrlə Daxili İşlər Nazirliyində görüş keçirilib

Tələbələr nazirliyin ayrı-ayrı xidmət sahələrində, o cümlədən Pasport-Qeydiyyat və Miqrasiya, İnformasiya-Kommunikasiya, İstintaq və Təhqiqat şöbələrində, Dövlət Yol Polisi, Təşkilat İnspeksiya idarələrində, Kriminalistik Tədqiqatlar Bölməsində olublar. Tələbələrə əl-barmaq izlərinin götürülməsi, texniki baxışın keçirilməsi, "Təhlükəsiz şəhər" monitor kabinəsinin fəaliyyəti, ümumvətəndaşlıq pasportlarının və sürücülük vəsiqələrinin verilməsi, məlumat portalında aparılan əməliyyatlar, elektron sənəd dövriyyəsinin təşkili və digər mövzularda ətraflı məlumatlar verilib.

Sonda tələbələrlə keçirilən görüşdə daxili işlər naziri, general-leytenant Əhməd Əhmədov bildirib ki, bu gün muxtar respublikamızda xüsusi diqqət və qayğı ilə əhatə olunan polis cinayətlərin, inzibati xətaların və digər hüquq pozuntularının baş verməsinin qarşısının alınması istiqamətində uğurlu fəaliyyət göstərir. Hər bir polis əməkdaşının ən müasir texniki avadanlıqlardan, informasiya texnologiyalarının son nailiyyətlərindən istifadə etməsi cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin və təhlükəsizliyin təmin olunmasında operativliyi artırıb. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin rəsmi internet səhifəsinin və elektron poçtunun fəaliyyət göstərməsi isə xidmətin səmərəli təşkilinə, eləcə də vətəndaşların müraciətlərinin vaxtlı-vaxtında həllinə şərait yaradıb. Hazırda Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin bütün polis idarə və şöbələrində polis sahə məntəqələri fəaliyyət göstərir. Muxtar respublika sakinlərinə göstərilən xidmətlərin səviyyəsini yüksəltmək məqsədilə nazirlikdə yaradılmış səyyar xidmət öz fəaliyyətini günün tələbləri səviyyəsində qurub. Muxtar respublikanın şəhər, rayon və kəndlərində, eləcə də ümumtəhsil məktəblərində mütəmadi olaraq keçirilən görüşlər, aparılan maarifləndirici söhbətlər də öz bəhrələrini verir.

Diskussiya şəraitində keçirilən görüşdə nazirliyin Təşkilat İnspeksiya İdarəsinin rəisi, polis polkovniki Əli Tağıyev muxtar respublikada asayişin və əmin-amanlığın təmin edilməsində, cinayətkarlığa qarşı mübarizədə əldə edilmiş nailiyyətlərdən, işdə tətbiq olunan yeni metodlardan danışıb.

Görüşdə tələbələrin hüquqi bilikləri yoxlanılıb. Tələbələrin nazirliyin iş prinsipi ilə yaxından tanış olmaları üçün boş vaxtlarında nazirliyə gəlmələri, şəxsi heyətlə əlaqə saxlamaları tövsiyə olunub.

Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsi ilə razılaşmaya və tərtib edilmiş qrafikə əsasən, həftədə bir dəfə tələbələrlə görüşlər davam etdiriləcək, onların ayrı-ayrı qruplar şəklində nazirliyin fəaliyyətində iştirakı təmin olunacaq. Bundan başqa, tələbələrlə ayda bir dəfə ümumi görüş keçiriləcək.

**Xəbərlər şöbəsi**

*Yeni Azərbaycan Partiyası XX əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə cərəyan edən mürəkkəb ictimai-siyasi şəraitdə siyasi səhnəyə qədəm qoymuşdur. Müstəqilliyin ilk illərində xalqımızın yekdil inamını qazanaraq, ölkəni düşdüyü dərin siyasi böhrandan, fəlakət həddinə çatmış sosial-iqtisadi geriləmədən, uğursuz xarici siyasətin nəticəsi olan beynəlxalq aləmdə təklənməkdən və torpaqlarımızın işğalı təhlükəsindən xilas edəcək yeni bir siyasi qüvvəyə ciddi ehtiyac duyulurdu. O zaman müdrik xalqımız bu siyasi qüvvənin yalnız ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə yaranacağına şübhə etmirdi.*

**Ulu öndər Heydər ƏLİYEV:** ***Yeni Azərbaycan Partiyası Azərbaycanın bu gününün partiyasıdır, Azərbaycanın sabahının partiyasıdır, XXI əsrin partiyasıdır, 3-cü minilliyin partiyasıdır.***

***21 noyabr Yeni Azərbaycan Partiyasının yarandığı gündür***

# Yeni Azərbaycan Partiyası Azərbaycanın müasir tarixində böyük bir fenomendir

23 il bundan əvvəl Azərbaycanı ciddi təhlükələrdən çıxarmaq üçün ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv tarixi zərurət idi. 1992-ci il oktyabrın 16-da 91 nəfər tanınmış Azərbaycan ziyalısının ümummilli lider Heydər Əliyevə ünvanladıqları "Azərbaycan Sizin sözünüzü gözləyir" adlı müraciətin "Səs" qəzetində dərc olunması partiyanın təşkili istiqamətində ilk tarixi addım oldu. Ulu öndər müraciətə cavabında ölkəmizin qarşısında duran təxirəsalınmaz vəzifələri müəyyənləşdirərək Yeni Azərbaycan Partiyasının yaradılmasının zəruriliyini bildirdi və onun fəaliyyətində iştiraka hazır olduğunu bəyan etdi. Bu, sadə xalq kütlələrində ruh yüksəkliyi yaratsa da, həmin dövrdə Azərbaycanda hakimiyyətdə olan qüvvələr ulu öndərin rəhbərliyi altında yeni bir siyasi təsisatın yaranmasının əleyhinə idilər. Lakin ümummilli liderin hakimiyyətə qayıdışı artıq qarşısıalınmaz tarixi zərurət və yekdil sosial sifariş idi. O zamankı iqtidarın gücü yalnız partiyanın təsis konfransının Bakıda keçirilməsinin qarşısını almağa çatdı. 1992-ci il noyabrın 21-də Naxçıvan Dövlət Musiqili Dram Teatrının binasında ölkənin ayrı-ayrı bölgələrindən cəmiyyətin ən müxtəlif təbəqələrini təmsil edən 550 nəfərdən artıq nümayəndənin iştirakı ilə təsis konfransı keçirildi. Konfransda dahi rəhbər Heydər Əliyev yekdilliklə Yeni Azərbaycan Partiyasının Sədri seçildi, təşkilatın Nizamnaməsi və Proqramı qəbul edildi.

Yeni Azərbaycan Partiyasının yaradılmasının əsas məramına diqqəti cəlb edən ulu öndər sonralar demişdir: ***"Bu partiya hakimiyyət uğrunda mübarizə aparan partiya kimi yaranmadı. Biz partiyanın nizamnaməsində yazdıq ki, partiya Azərbaycanın bu ağır dövründə, ölkəmizin ictimai-siyasi həyatında iştirak etmək və Azərbaycanı bu ağır vəziyyətdən çıxarmaq üçün yaranır. Bizim partiya xalqı birləşdirmək, ölkənin problemlərinin həll olunmasında iştirak etmək məqsədilə yaranıb. Mən məmnunam ki, 1992-ci ildə çox ağır şəraitdə Naxçıvanda bizim yazdığımız və qəbul etdiyimiz proqram bu gün də öz aktuallığını saxlayır".***

Yeni Azərbaycan Partiyası tarixi qanunauyğunluqdan dövlətçiliyin keşiyində dayanan siyasi qüvvə kimi meydana çıxdı və 1993-cü il oktyabrın 3-də ulu öndər Heydər Əliyevin ölkə Prezidenti seçilməsi ilə hakim partiyaya çevrildi. Bu, "dünənin, bu günün və gələcəyin partiyası" olan Yeni Azərbaycan Partiyasına xalqın böyük inamının təzahürü idi.

Yeni Azərbaycan Partiyasının yaranması bir tərəfdən geniş xalq kütlələrinin ulu öndər Heydər Əliyevin Azərbaycan xalqına əvvəlki dövrdəki xidmətlərinə göstərdiyi inamı ifadə edirdisə, digər tərəfdən onun ötən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvanda müstəqil dövlətçiliyin qurulması sahəsində həyata keçirdiyi tədbirlərin fonunda Azərbaycanı düçar olduğu ağır vəziyyətdən xilas etmək qüdrətinə malik yeganə siyasi lider olduğunu nümayiş etdirirdi. Bu baxımdan Yeni Azərbaycan Partiyasının siyasi-ideoloji prinsipləri, bütün proqram müddəaları dahi rəhbərin müəyyənləşdirdiyi konseptual baxışlar sistemi əsasında formalaşdı. Bu gün ölkəmizin əsas aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının qüdrətini təmin edən çox mühüm amillərdən biri partiyanın təməl prinsipləridir. Bunlar müstəqil dövlətçilik, qanunçuluq, Azərbaycançılıq, vətəndaşlıq, varislik, yaradıcı təkamül, konstruktiv əməkdaşlıq, vətəndaş həmrəyliyi və sosial ədalətdir.

Tarixi zərurət və yekdil sosial sifariş, güclü lider və zəngin dövlətçilik təcrübəsi, uzaq hədəflərə hesablanmış siyasi-ideoloji baza qısa müddətdə Yeni Azərbaycan Partiyasının sıralarının genişlənməsini, əsas milli, kütləvi partiyaya çevrilməsini şərtləndirdi. 1993-cü ildən bəri Yeni Azərbaycan Partiyası müstəqil dövlətimizin inkişafını uğurla təmin edən hakim partiyadır. Ötən dövrün siyasi hakimiyyət təcrübəsi ölkəmizdə ictimai-siyasi sabitliyin, daxili və xarici siyasətin etibarlılığının, əhalinin sosial-iqtisadi və mədəni-mənəvi tələbatının ödənilmə səviyyəsinin, insanların hüquq və azadlıqlarının, mülki toxunulmazlığının və şəxsi təhlükəsizliyinin təmin olunması səviyyəsinə görə Azərbaycan xalqı qarşısında daşıdığı böyük məsuliyyəti tam doğrultmuşdur. Belə ki, ümummilli liderimizin 1993-cü ilin 15 iyunundan Azərbaycan dövlətçiliyinin xilası istiqamətində başladığı Qurtuluş mübarizəsi müstəqilliyin ilk illərində dövlətçilik, idarəetmə sahəsində heç bir təcrübəsi olmayan anarxist düşüncəli qrupun yaratdığı xaos və cinayətkarlıq mühitinin ləğvi ilə nəticələndi. O zamanadək ölkənin sərvətlərinin talan edilməsi, milli-etnik nifaq və separatizm təhlükəsi, çoxsaylı qanunsuz silahlı dəstələr tərəfindən törədilən quldurluq əməlləri, soyğunçuluq və üstü açılmayan qətllər, az qala, adi hal almışdı. Bütün bu problemləri uzaqgörənliklə həll edən ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı milli dövlətçiliyin xilası ilə yanaşı, ölkədə keyfiyyətcə yeni və mütərəqqi siyasi dövrün, hətta yeni milli təfəkkür mərhələsinin başlanması ilə səciyyələndi. Ölkəmizin ətrafında yaradılan informasiya blokadası dağıdıldı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə əsl həqiqətlər dünya ictimaiyyətinə çatdırıldı. Azərbaycan bir sıra beynəlxalq qurum və təşkilatlara üzv seçildi. Ən qiymətli təbii sərvətimiz olan neftdən iqtisadi resurs və siyasi amil kimi səmərəli istifadə edildi. Yeni neft strategiyası hazırlandı və uğurla həyata keçirildi. Ulu öndər həyata keçirdiyi böyük xilaskarlıq missiyasını lakonik şəkildə belə ifadə edirdi: ***"Biz bütün çətinliklərdən keçdik, bütün bu maneələrin qarşısını aldıq, Azərbaycanın bütün düşmənlərinə layiqincə cavab verdik, ölkəmizin dövlət müstəqilliyini qoruduq. Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etdik və Azərbaycanın dövlət müstəqilliyini yaşadırıq və bundan sonra da yaşadacağıq".***



Müasir Azərbaycan dövlətinin yaradılması, müstəqilliyin qorunub saxlanılması, milli dövlətçilik ənənələrinin bərpa edilməsi ümummilli liderimizin XX əsrdə xalqımız qarşısında misilsiz xidmətidir. Ulu öndər bu missiyanı yerinə yetirərkən vahid qüvvə kimi tükənməz məhəbbətlə xalqa arxalanmışdır. Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev lideri olduğu partiyanın sıralarında olmağı milli dövlətçiliyə xidmət etməyin nümunəsi sayırdı: ***"Yeni Azərbaycan Partiyasına xidmət etmək Vətənə, millətə, müstəqil Azərbaycan dövlətinə xidmət etmək deməkdir".***

2005-ci ilin mart ayında partiyanın III qurultayında Yeni Azərbaycan Partiyasına Sədr seçilən hörmətli Prezidentimiz İlham Əliyev bu gün həmin siyasəti uğurla davam etdirir. Partiyamızın rəhbərinin qətiyyəti sayəsində hazırda 650 mindən artıq üzvü olan Yeni Azərbaycan Partiyasının xalq, dövlət qarşısındakı xidmətləri bu təşkilatın cəmiyyətdəki mövqeyini get-gedə daha da möhkəmləndirir, xalqın bu partiyanın ideoloji-siyasi xəttinə dəstəyini gücləndirir. Yeni Azərbaycan Partiyası iqtidarının yürütdüyü dövlət siyasətinin ən mühüm tərkib hissələrindən biri də Azərbaycanda hüquqi dövlət quruculuğunu təkmilləşdirmək, vətəndaş cəmiyyəti institutunu möhkəmləndirmək, çoxpartiyalı sistem, siyasi plüralizm, demokratikləşmə prosesini optimallaşdırmaq və bu yöndə ümumbəşəri dəyərlərə inteqrasiya, beynəlxalq təşkilatlarla xalqımızın və dövlətimizin mənafeyinə uyğun qarşılıqlı əməkdaşlıq xəttini davam etdirməkdən ibarətdir. Bu sahədə qazanılan uğurlar həm Azərbaycan cəmiyyəti, həm də beynəlxalq birlik tərəfindən təqdir olunur, dünyanın aparıcı siyasi mərkəzləri, institutları tərəfindən müsbət qiymətləndirilir.

Yeni Azərbaycan Partiyası beynəlxalq mühitdə siyasi əməkdaşlıq, sivilizasiyaların dialoqu tərəfdarı kimi çıxış edərək milli birliyin möhkəmləndirilməsi, Azərbaycançılıq ideologiyasının təbliği və inkişafı istiqamətində mühüm işlər görür. Bütün bunlar Yeni Azərbaycan Partiyasının dünyanın siyasi təşkilatları arasında nüfuzunu artırır, Azərbaycan cəmiyyətindəki mövqeyini möhkəmləndirir, xalqımızın partiyanın ideoloji xəttinə dəstəyini artırır, siyasi qüdrətini şərtləndirir. Prezident İlham Əliyevin bəyan etdiyi kimi: ***"Yeni Azərbaycan Partiyası Azərbaycanın müasir tarixində böyük bir fenomendir. Çətin şəraitdə, təzyiqlərlə, hədə-qorxularla üzləşərək, bütün məhrumiyyətlərlə üzləşərək, həm partiya üçün, həm partiya fəalları, həm də ölkə üçün, demək olar, ən ağır dönəmdə yaranan bu partiya möhkəmləndi, gücləndi və bu gün bölgədə onun analoqu yoxdur. Nəinki Azərbaycanda, qonşu ölkələrdə də Yeni Azərbaycan Partiyası kimi güclü, mütəşəkkil qüvvə yoxdur".***

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının formalaşmasında ən mühüm amil partiyanın ümummilli liderin rəhbərliyi ilə Naxçıvanda yaranması olmuşdur. Heydər Əliyev siyasi məktəbinin davamçısı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri Vasif Talıbovun muxtar respublikada gördüyü böyük quruculuq işləri, yaratdığı dayanıqlı ictimai-siyasi sabitlik onun xalqa olan bağlılığını və ulu öndərin işıqlı ideyalarına sadiqliyini nümayiş etdirir. Naxçıvan Muxtar Respublikasında əldə olunmuş uğurlar və nailiyyətlər bu yolun uğurla davam etdirilməsinin bariz ifadəsidir. Tikilən yüzlərlə obyektlər, məktəblər, yeni iş yerləri, Naxçıvan şəhərində və rayonlarda aparılan geniş tikinti-quruculuq işləri hər bir sakində böyük iftixar hissi yaradır.

Bu gün 8 rayon və şəhər təşkilatını, 796 ərazi ilk partiya təşkilatını əhatə edən Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının sıralarında cəmləşən partiya üzvlərinin əsas hissəsini təşkil edən gənclər və qadınlar muxtar respublikanın sosial-iqtisadi və ictimai-siyasi həyatında əsas hərəkətverici qüvvəyə çevrilmişdir. 1992-ci ildə, partiyanın yarandığı ilk günlərdə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı 1118 nəfəri, 2002-ci ildə isə 20 min nəfəri öz sıralarında birləşdirirdisə, hazırda muxtar respublikada partiya üzvlərinin sayı 51 min 710 nəfərdir. Bu da muxtar respublikanın siyasi fəal əhalisinin təxminən 20 faizi deməkdir.

Heç şübhəsiz ki, siyasi partiyanın ən əsas göstəricisi onun müxtəlif səviyyələr üzrə təmsilçilik orqanlarına keçirilən seçkilərdə iştirakı və qazandığı nəticələrlə müəyyənləşir. 1993-cü ildən bəri Azərbaycanda keçirilən hər bir seçki müstəqil dövlətimizin seçki təcrübəsində mühüm irəliləyişlərlə yadda qalmışdır. Son 22 ildə keçirilən bütün seçkilərdə olduğu kimi, 2015-ci il noyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə keçirilən seçkilər də Yeni Azərbaycan Partiyasının parlaq qələbəsi ilə yekunlaşmışdır. Azərbaycan seçicisi bir daha öz fəal dəstəyini nümayiş etdirməklə Yeni Azərbaycan Partiyasının xalqın inamını qazanmış alternativsiz siyasi güc olduğunu sübut etmişdir. Azad, demokratik və şəffaf şəraitdə seçicilərin yüksək mütəşəkkilliyi ilə müşayiət olunan bu seçkilər eyni zamanda ölkənin demokratik inkişafında keyfiyyətcə yeni mərhələ açmışdır. Seçkilərin nəticələrinə görə, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı qarşıdakı 5 il ərzində 2 nəfərlə Azərbaycan Respublikasının Milli Məclisində, 41 nəfərlə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində təmsil olunmaq hüququ qazanmışdır.

Son parlament seçkilərinin yekunları bir daha göstərdi ki, Azərbaycan xalqı azad və tərəddüdsüz, həm də doğru seçim edəcək qədər yetkin və müdrikdir. Bu müdrik seçim obyektiv reallığa, ölkənin keçdiyi inkişaf yolunun məntiqi davamına, konkret desək, Azərbaycan vətəndaşının yüksək yaşam tərzinə əsaslanır. Son seçkilər Azərbaycan cəmiyyətinin ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik irsini ölkənin milli təhlükəsizliyinin, iqtisadi maraqlarının və siyasi sistemin sabitliyinin təmin edilməsinə yönələn təkmil siyasi konsepsiya kimi qəbul etdiyini növbəti dəfə təsdiqləmiş oldu. Çünki həmin konsepsiyanın qayəsini dövlətçiliyə xidmət təşkil edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri hörmətli Vasif Talıbovun sözləri ilə desək: ***"Müasir, müstəqil Azərbaycan və ümumxalq hərəkatına çevrilən Yeni Azərbaycan Partiyası ulu öndərimizin özündən sonra xalqımıza ən böyük töhfəsi və əmanətidir".***

Bu gün Naxçıvan Muxtar Respublikasında da sosial-iqtisadi inkişafın davamlı xarakter daşıması, milli dövlətçiliyin qorunması Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının təməl prinsiplərindəndir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri partiyanın muxtar respublika təşkilatının gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirərək demişdir: ***"Müasir şəraitdə partiya üzvlərimizin qarşısında mühüm vəzifələr dayanır. "Sağlam cəmiyyət – güclü dövlət" sistemi üzrə doğma Azərbaycanımızın inkişafına çalışmalı, Yeni Azərbaycan Partiyasının üzvü kimi şərəfli adı öz əməyimizlə doğrultmalıyıq. Bizim məsuliyyətimiz – bizim vəzifəmizdir. Vəzifə – partiya quruculuğunda və hər birimizin konkret fəaliyyət sahələrində işə yaradıcı yanaşmaqdan, dəqiq, dürüst olmaqdan, ümummilli lider Heydər Əliyevin tövsiyə etdiyi kimi işləməkdən və ölkəmizi onun görmək istədiyi kimi qurub-yaratmaqdan ibarətdir".***

***Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyi***

# Oxucu məktubları

*“Şərq qapısı” qəzetinə yazırlar*

## Daha yüksək inkişaf və tərəqqiyə doğru

*Noyabr ayının 1-də Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə keçirilən seçkilər naxçıvanlıların ulu öndər Heydər Əliyevin yoluna, dövlətimizə, dövlətçiliyimizə, müstəqilliyimizin əbədiliyinə olan sədaqətini bir daha təsdiqlədi.*

Noyabrın 17-də keçirilən beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında Ali Məclis Sədrinin seçilməsi muxtar respublika sakinlərinin iradəsinin ifadəsidir.

Naxçıvanlılar son illər ərzində muxtar respublikada bütün sahələrdə çox yüksək inkişafa, tərəqqiyə nail olunduğunun iştirakçısı və şahididirlər. Bu illərin bir ili ərzində görülən işlər onillik iş həcminə bərabərdir. Naxçıvan şəhərindən tutmuş rayon mərkəzlərimiz, ucqar sərhəd yaşayış məntəqələrimiz, ən kiçik kəndlərimiz belə inkişafa qovuşub. Bu dövrdə Naxçıvan yenidən qurulmuş və qədim diyarımızın siması tamamilə dəyişmişdir. Hər il həyata vəsiqə alan onlarla təhsil, mədəniyyət, səhiyyə ocaqları, kənd mərkəzləri, salınan yollar, körpülər, ən yeni informasiya texnologiyalarının tətbiqi, əhalinin məşğulluğunun təmin olunması, yeni emal və istehsal müəssisələrinin yaradılması, yerli məhsul istehsalının həcminin genişləndirilməsi bugünkü Naxçıvanın real mənzərəsidir. Bu, hər bir naxçıvanlının həyat tərzində özünü göstərir, insanların yaşayış səviyyəsi daha da yaxşılaşır, qurub-yaratmaq əzmi artır.

Mən bir tarix müəllimi kimi minnətdarlıq hissi ilə qeyd etmək istərdim ki, bizi narahat edən bir çox problemlər öz həllini tapmışdır. Çoxcildlik “Naxçıvan tarixi” kitabının yazılması, tarixi abidələrimizin pasportlaşdırılması, bərpası, aparılan arxeoloji tədqiqatlar, Naxçıvan tarixinin qaranlıq səhifələrinin işıqlandırılmasına xidmət edən tədqiqat əsərlərinin meydana gəlməsi, beynəlxalq simpozium və konfransların keçirilməsi böyük vətən sevgisindən, milli tariximizə olan dərin məhəbbətdən yoğrulmuş məqsədyönlü siyasətin tərkib hissəsidir.

Muxtar respublika ziyalıları beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında qəbul olunan qərarları dəstəkləyirlər. Bu seçim bütün naxçıvanlıların seçimidir və muxtar respublikamızın daha parlaq gələcəyini təmin edəcəkdir.

**Elbrus İSAYEV**
***“Naxçıvan” Universitetinin müəllimi, tarix üzrə fəlsəfə doktoru***

*Razılıq*

## Qızılca müasir yaşayış məntəqələrinin sırasına qoşulub



**Hörmətli redaksiya!** Bu məktubu sizə Culfa rayonunun Qızılca kəndindən yazıram. Ötən günlərdə kəndimizdə yeni obyektlərin istifadəyə verilməsindən sonra bütün kəndin sakinləri kimi, mən də özümdə görülən işlərə görə minnətdarlıq etmək ehtiyacı duydum. Məktubumun əvvəlində kəndimizin keçmiş günlərindən qısaca söz açmaq istərdim. Qızılcanın 20 il öncəki vəziyyəti haqda kənd sakinlərinin, eləcə də müəllim həmkarlarımın hər zaman fikri belə olub ki, həmin dövrdə kənd sakinləri bir sıra problemlərlə üz-üzə qalıb. Bundan başqa, məni ən çox narahat edən məsələlərdən biri də həmkarlarımın şəraitsiz bir binada çətinliklə dərs keçmələri olub. Kəndin, eləcə də rayonun inzibati idarəçiliyinə təsadüfi adamların rəhbərlik etməsi vəziyyəti daha da çətinləşdirmişdi. Ona görə də hər bir kiçik problemdən ötrü kəndin sakinləri şəhərə üz tutur, müxtəlif instansiyalara müraciət edir, müxtəlif idarələrin qapısında saatlarla vaxt keçirirdilər. 1995-ci ildən sonra kənd sakinlərinin problemləri tədricən həll olundu. Bu istiqamətdə görülən işlərin, insanların hərtərəfli qayğı ilə əhatə olunmasının, belə demək mümkünsə, kuliminasiya nöqtəsi isə bu yaxınlarda yeni sosial obyektlərin istifadəyə verilməsidir. Həmin gün muxtar respublika rəhbərinin iştirakı ilə kənd və xidmət mərkəzləri, yeni məktəb binası qapılarını sakinlərin üzünə açdı, abad yol istifadəyə verildi.

Kənddə yeni məktəb binasının istifadəyə verilməsindən sonra şahidi olduğum bir hadisəni də oxucularla paylaşmağı özümə, bir növ, borc hesab edirəm. İlk dərs saatından öncə iki şagirdin söhbətinə istər-istəməz qulaq yoldaşı oldum. Şagirdlərimdən biri çantasından salfet çıxarıb ciddi-cəhdlə oturduğu partanı silməyə çalışırdı. O biri şagird isə partanın yeni və təmiz olduğunu deyir, yoldaşından bu işi bitirməsini istəyirdi. Qarşılığında o şagirdin cavabı məni çox təsirləndirdi. Dedi ki, əvvəllər köhnə partanı silməyə adət edib, ancaq həmişə hiss edib ki, gördüyü iş mənasızdı. Bu gün də partanı silir, ancaq bilir ki, gördüyü işin bu dəfə mənası var, parta təptəzədir, onu elə belə də qoruyub saxlamaq lazımdır. O, ilk dəfə geniş, işıqlı və isti sinifdə yeni partada oturacaq, müəllimini dinləyəcək, belə gözəl, tərtəmiz sinifdə ala qiymətlər alacaq.

Bəli, noyabrın 10-da kənddə istifadəyə verilən yeni binalar bütün qızılcalılara, eləcə də şagird və müəllimlərə qürur hissi yaşatdı, bizi gələcəyə daha ümidlə baxmağa sövq etdi. Bütün bunlara görə dövlətimizə minnətdarıq.

**Rübabə NƏZƏROVA**
**Qızılca kənd tam orta məktəbinin müəllimi**

*Minnətdarlıq*

## Bayrağımız qürur mənbəyimizdir

***Hörmətli redaksiya! Muxtar respublikamızın bütün bölgələri kimi, Şahbuz rayonunun da gündən-günə abadlaşıb gözəlləşməsi bizi çox sevindirir. Bu günlərdə Şahbuz şəhərində Bayraq Meydanının istifadəyə verilməsi, möhtəşəm Dövlət Bayrağımızın ucaldılması mənim kimi bütün şahbuzlular üçün unudulmaz bir hadisə oldu.***



Düz 25 il əvvəl, 17 noyabr 1990-cı ildə ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olunan üçrəngli bayrağımızın Şahbuz şəhərində ucaldılması yaddaqalan bir hadisədir. Bu həm də rayonumuza, onun inkişafına göstərilən diqqətdən xəbər verir. Bildiyiniz kimi, Şahbuz ucqar və eyni zamanda sərhəd rayonudur. Vətənimizin hər bir guşəsində olduğu kimi, bizim rayonda da Bayraq Meydanının yaradılması müstəqilliyimizin və inkişafımızın təntənəsi, milli dəyərlərimizə, dövlət atributlarımıza olan sevgi kimi ürəyimizdə iftixar hissi oyadır. Bayrağa tamaşa edərkən fikirləşirəm ki, bu bayraq təkcə rayonumuzun hər yerindən görünən bir dövlət rəmzi deyil, həm də övladlarımızın xoşbəxt gələcəyinin, onların ürəyində əbədi yer tutacaq vətən, torpaq sevgisinin bir təcəssümüdür. Başımızın üstündə müstəqil dövlətimizin bayrağı ucaldıqca Azərbaycan da var olacaq və o müqəddəs bir ana kimi hamımıza qucaq açacaqdır. Qoy bayrağımız həmişə uca, onu yüksəklərə qaldıran əllər var olsun.

Dövlət atributlarına, ali milli dəyərimiz olan bayrağımıza göstərdiyi yüksək ehtirama, böyük diqqət və qayğıya görə ölkə başçısına və muxtar respublika rəhbərinə öz dərin minnətdarlığımızı bildiririk.

***Hörmətlə, Məlahət Haqverdiyeva***
***Şahbuz şəhər sakini***

## Məqsəd milli dəyərlərimizi yaşatmaq və təbliğ etməkdir

***Hörmətli redaksiya!*** Muxtar respublikada xalq yaradıcılığının dirçəldilməsi, qorunub-saxlanılması, təbliği, gələcək nəsillərə ötürülməsi istiqamətində müxtəlif tədbirlərin həyata keçirilməsi yaradıcı insanları həvəsləndirir, daha böyük əzmlə çalışmağa ruhlandırır. Ötən ay “Muxtar respublika qadınları müstəqillik illərində” mövzusuna həsr olunmuş sərgidə muxtar respublikada yaşayan 126 istedadlı qadının müxtəlif janrlarda çəkdikləri rəsm əsərləri və əl işlərindən ibarət 753 yaradıcılıq nümunəsi nümayiş etdirildi. Bu ayın əvvəlində isə “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində təşkil olunan xalq yaradıcılığı sərgisində də istedadlı qadınlar fəal iştirak edirdilər. Naxçıvan qadınlarının firavan həyatına, ictimai mühitlə geniş əlaqələrinin yaradılmasına doğru yönəldilmiş belə addımlar onların gələcək yaradıcılığı üçün böyük stimuldur. Neçə illər bundan əvvəl bacarıqlı qadınlarımızın istedadları itib-batırdı. Yaxşı ki, belə hal çox çəkmədi. Həyat öz axarına düşdü, qadınlar xoş günlərə qovuşdular. İndi biz qadınlar xoş günlərin işığında Naxçıvanın qədim tarixini və müasir inkişafını ilmələrə, tablolara köçürməklə qorumaq və yaşatmaq əzmi ilə var-qüvvəmizlə çalışırıq.



Bu sevincimi də sizinlə paylaşmaq istəyirəm. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 3 noyabr tarixli Sərəncamı ilə xalq yaradıcılığının inkişafındakı səmərəli fəaliyyətlərinə görə bir qrup sənətkar “Rəşadətli əməyə görə” nişanı ilə təltif olundu. Onlar sırasında adımın olması məni qürurlandırdı. Bu, kiçik əməyimə verilən böyük qiymətdir. Bütün yaradıcı insanlar adından göstərilən belə diqqət və qayğıya görə dövlətimizə minnətdarlığımı bildirirəm.

**Səriyyə HÜSEYNOVA**
***Naxçıvan Müəllimlər İnstitutunun müəllimi***

## Müasir yaşayış və xidmət şəraiti hər bir əsgərin döyüş ruhunu daha da yüksəldib

***Salam hörmətli redaksiya! Bu məktubu sizə muxtar respublikamızın ən yüksək mövqeyə malik Soyuq bölgəsində xidmət keçən əsgər yoldaşlarım adından yazıram. Məktubu yazmaqda məqsədimiz bizim üçün burada yaradılmış şəraitdən bəhs etməkdir. Ümid edirəm ki, sizin vasitənizlə məktubumu oxuyacaq hər bir əsgər valideyni buradakı xidmətimizlə qürur duymaqla yanaşı, dövlətimiz tərəfindən biz əsgərlərə göstərilən böyük qayğının da şahidi olacaqlar.***

Bəri başdan deyim ki, ali təhsil aldıqdan sonra ordu sıralarına çağırılmışam və artıq 6 aydır ki, xidmətdəyəm. İki aydan artıqdır ki, Soyuq bölgəsində xidmət edirəm. Soyuq bölgəsi dəniz səviyyəsindən 3000 metr yüksəklikdə yerləşir. Bu ərazi muxtar respublikamızın ən mühüm strateji təyinatlı döyüş postlarından biridir. Müxtəlif tarixi dövrlərdə Naxçıvanın müdafiə olunmasında bu bölgənin rolu böyük olub. Ötən əsrin sonlarında mənfur ermənilərlə mübarizədə həm hərbçilər, həm də mülki vətəndaşlarımız bu yüksəklikdə düşmənə qarşı mərdliklə mübarizə aparıblar. O zaman burada normal xidmət üçün lazımi şərait olmayıb. Gediş-gəliş çətin olduğu üçün ərzaq, yanacaq, müxtəlif döyüş vasitələrinin vaxtında çatdırılması problemə çevrilib. Ancaq indi vəziyyət tamamilə dəyişib. Ölkə Prezidenti tərəfindən ordumuza göstərilən böyük diqqət və qayğının nəticəsində hərbi hissələrdə hərtərəfli şərait yaradılıb. Soyuq bölgəsində aparılan quruculuq tədbirləri bizim rahatlığımızı təmin edir, yüksək səviyyədə xidmət aparmağımıza imkan verir. Noyabr ayının 5-də burada müasir əsgəri yaşayış kompleksi istifadəyə verildi. Binada əsgər və zabitlər üçün yataq otaqları, məişət və tibb otaqları, mətbəx, yeməkxana, müxtəlif xidməti otaqlar yerləşir. Əsgərlər üçün yataqxana bütün lazımi avadanlıqlarla təmin olunub. İqlimin sərt olmasına baxmayaraq, buranın daimi elektrik enerjisi, təbii qazı, istilik və rabitə sistemi vardır. İstirahətimiz üçün nümunəvi şərait yaradılıb. Televizor, müxtəlif ədəbiyyatlar, qəzet və jurnallardan istifadə edərək asudə vaxtımızı səmərəli keçiririk. Mürəkkəb relyefə və sərt iqlimə malik bölgədə yaradılmış yüksək şərait bizi Vətən torpaqlarının qorunmasında daha məsuliyyətli edir. Müasir yaşayış və xidmət şəraiti hər bir əsgərin döyüş ruhunu daha da artırır. Biz burada yaradılanlarla ölkəmizin gücünü bir daha görürük. Eyni zamanda böyük qürur hissi keçiririk ki, torpaqlarımızın keşiyində ayıqsayıq dayanmışıq. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri hər il Soyuq bölgəsinə gələrək əsgərlərlə görüşür. Muxtar respublika rəhbərinin noyabrın 5-də əsgərlərlə növbəti görüşü də şəxsi heyətin böyük sevincinə səbəb olub. Bu görüş əsgərlərdə mübarizlik, qəhrəmanlıq hislərini alovlandırıb, şəxsi heyət arasındakı birlik və bərabərliyi daha da möhkəmləndirib. Böyük qürur hissi keçirirk ki, bizim arxamızda güclü və müstəqil Azərbaycan dövləti dayanıb. Ona görə də Vətənimizə, müstəqil Azərbaycanımıza xidmət etməyimizlə fəxr edirik. Dövlətimizin bizə göstərdiyi diqqət və qayğıya görə minnətdarlıq edir, hər bir döyüş əmrinə hazır olduğumuzu bildiririk. Muxtar respublika sakinləri əmin olsunlar ki, sərhədlərimiz etibarlı qorunur. Övladları Soyuq bölgəsində xidmət edən valideynlər isə arxayın olsunlar ki, bizim üçün yüksək şərait yaradılıb, heç bir çətinlik çəkmirik, Vətənimizə xidmət edirik.

**Ülvi ABDULLAYEV**
**“N” hərbi hissəsinin əsgəri,**
**Soyuq döyüş bölgəsi**

# Şərqin böyük dahisi Nəsirəddin Tusi

## Bu mövzuda beynəlxalq konfrans keçirilir

*Naxçıvan Dövlət Universitetində "Şərqin böyük dahisi Nəsirəddin Tusi" mövzusunda iki gün davam edəcək beynəlxalq konfrans öz işinə başlamışdır.*

Ölkənin müxtəlif ali təhsil ocaqlarından, Türkiyə və İrandan dəvət olunmuş alimlərin, AMEA-nın elmi-tədqiqat institutlarının, AMEA Naxçıvan Bölməsinin əməkdaşlarının, "Naxçıvan" Universiteti və Naxçıvan Müəllimlər İnstitutunun, Naxçıvan Dövlət Universitetinin professor-müəllim heyəti və tələbələrinin iştirakı ilə keçirilən beynəlxalq konfransın plenar iclasını universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açmışdır. Rektor "Elmin Nəsirəddin Tusi zirvəsi" mövzusunda məruzə edərək bildirmişdir ki, o, elmin müxtəlif sahələri ilə dərindən maraqlanmış, astronomiya, riyaziyyat, fizika, tibb, fəlsəfə, etika, məntiq və elmin digər sahələrinə həsr olunmuş əsərlər yazmışdır. Onun yaradıcılığında astronomiya və riyaziyyat üzrə tədqiqatlar xüsusi yer tutur. Riyaziyyata həsr etdiyi əsərlər yalnız ərəbcə, astronomiya üzrə tədqiqatları isə həm fars, həm də ərəb dillərində yazılmışdır. Riyaziyyatçı alimin ən məşhur əsərləri arasında "Şəklül-qita" (Bütöv çoxtərəfli haqda risalə), "Cameül-hesab" (Lövhə və tozun köməyi ilə hesab toplusu), "Dairənin ölçüsü", "Təhrir Öqlidis" (Evklid başlanğıcının təsviri) kimi kitablar xüsusi yer tutur. Dörd hissədən ibarət "Zici-İlxani" (İlxanilərin astronomik cədvəlləri) əsəri isə alimin adını dünya astronomiya tarixinə salmışdır.



Azərbaycan Yazıçılar Birliyinin üzvü, iqtisad üzrə elmlər doktoru Əhməd Qəşəmoğlu "Nəsirəddin Tusi fəlsəfəsi" mövzusundakı məruzəsində sürətlə qloballaşma prosesi gedən dünyada baş verməkdə olan sosial gərginliklərin qarşısını almaq üçün orta əsr İslam fəlsəfəsindən istifadənin vacib olduğunu bildirmiş, konkret olaraq bu işdə Nəsirəddin Tusinin "Əxlaqi-Nasiri" əsərinin olduqca faydalı cəhətləri barədə danışmışdır.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun elmi işlər üzrə direktor müavini, kimya elmləri doktoru Bayram Rzayev "Nəsirəddin Tusinin mineralogiya və kimyaya dair işləri" mövzusundakı məruzəsində bildirmişdir ki, görkəmli alimin dəqiq elmlər sahəsindəki kəşfləri, əsasən, Qərbdə geniş istifadə edilmiş, humanitar sahədə tədqiqatları isə Şərqdə şöhrət qazanmışdır. Tusi elmlər daxilində yeni elm yaradan dahi olmuşdur. O, riyaziyyat elmləri daxilində triqonometriyanı, fəlsəfə daxilində isə pedaqogikanı yaratmışdır. Həmin dövrdə mineralogiya və kimya geniş inkişaf etməsə də, Tusi bu sahələrdə də öz sözünü demişdir.

Beynəlxalq konfransda İran İslam Respublikasından dəvət olunmuş Urmiya Universitetinin rektoru, doktor Rahim Hobbenaghi, AMEA Fizika İnstitutunun aparıcı elmi işçisi, dosent Nazilə Sultanova, Naxçıvan Dövlət Universitetinin elmi işlər üzrə prorektoru, dosent Mübariz Nuriyev çıxışlarında ensiklopedik alim Nəsirəddin Tusinin bir çox əsərlərinin dünyanın müxtəlif kitabxanalarında olduğunu qeyd etmişlər.

Vurğulanmışdır ki, Nəsirəddin Tusi Şərq dünyasında etikaya dair "Əxlaqi-Nasiri" adlı məşhur əsəri ilə və Marağa rəsədxanasının banisi kimi xüsusi rəğbət qazanmış, heliosentrik sistem haqqında ilk məlumatları polşalı astronom Nikolay Kopernikdən öncə hələ XIII əsrdə Nəsirəddin Tusi vermişdir.

Qeyd edək ki, beynəlxalq konfrans öz işini "Nəsirəddin Tusinin pedaqoji görüşləri və fəlsəfəsi", "Nəsirəddin Tusi və dəqiq elmlər", "Nəsirəddin Tusinin yaşadığı dövrdə ictimai-siyasi fəaliyyəti" mövzularında keçirilən bölmə iclasları ilə davam etdirir.

**Mina QASIMOVA**

# Müharibə veteranının 95 yaşı qeyd olunub

Noyabrın 20-də Culfa rayon Camaldın kənd sakini, müharibə veteranı Abbasəli Əliyevin 95 yaşının tamam olması münasibətilə keçirilən görüşdə iştirak edən Culfa Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev, Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova yubilyarı 95 yaşı münasibətilə təbrik ediblər.

Bildirilib ki, 1941-1945-ci illər müharibəsi veteranlarına dövlətimiz tərəfindən xüsusi diqqət və qayğı göstərilir. Onların sosial müdafiəsi ilbəil gücləndirilir. Müharibə veteranlarına hər ay Prezident təqaüdünün ödənilməsi, onların tibbi və sosial reabilitasiyası istiqamətində tədbirlərin görülməsi göstərilən qayğının bariz nümunəsidir.

Abbasəli Əliyev ona göstərilən yüksək diqqət və qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Sonda yubilyara hədiyyə təqdim olunub.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 12 mart 2015-ci il tarixli Sərəncamı ilə təsdiq edilən "1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinin qeyd olunması üzrə Tədbirlər Planı"nın icrası ilə bağlı 14 nəfər müharibə veteranının yubileyləri keçirilib. Onlardan 2 nəfəri Naxçıvan şəhərindən, 3 nəfəri Şərur rayonundan, 1 nəfəri Babək rayonundan, 3 nəfəri Ordubad rayonundan, 3 nəfəri Culfa rayonundan, 1 nəfəri Kəngərli rayonundan, 1 nəfəri isə Şahbuz rayonundandır.

# "Stomatologiyanın aktual problemləri" mövzusunda konfrans

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, dünən Akademik Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında "Stomatologiyanın aktual problemləri" mövzusunda konfrans keçirilib.

Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Sona Məmmədova səhiyyə işçilərinin bilik və bacarıqlarının təkmilləşdirilməsi üçün görülən işlər sırasında elmi-praktik konfrans və seminarların, treninq və təlimlərin, təkmilləşdirmə kurslarının, təcrübə mübadilələrinin mühüm əhəmiyyətini qeyd edib.

Bildirilib ki, növbəti tədbirin müasir stomatologiyanın aktual problemlərinə həsr olunması mühüm əhəmiyyət kəsb edir, bu, praktik fəaliyyət göstərən həkim-stomatoloqlar üçün faydalı olacaqdır.

Sonra Stomatoloji Mərkəzin baş həkimi Səkinə Məmmədovanın, mərkəzin həkim-stomatoloqları Könül Zeynalovanın, Ləman Əliyevanın, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının həkim-stomatoloqları Sahib Qurbanovun, Kamran Hümmətovun müxtəlif mövzularda məruzələri dinlənilib.



Muxtar respublikanın səhiyyə müəssisələrində praktik fəaliyyət göstərən həkim-stomatoloqlar, orta tibb işçiləri, Naxçıvan Dövlət Universiteti Tibb fakültəsi və Naxçıvan Tibb Kolleci tələbələrinin iştirak etdikləri tədbirdə verilən suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Məhdud fiziki imkanlı şəxslərə növbəti səyyar xidmət göstərilib

18-20 noyabr tarixlərində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən məhdud fiziki imkanlı şəxslərə növbəti səyyar protez-ortopedik xidmət göstərilib.

Tibbi-texniki heyət məhdud fiziki imkanlı 101 şəxsin, o cümlədən 5 ahılın, sağlamlıq imkanları məhdud 11 uşağın evlərinə gedərək onların ehtiyaclarını öyrənib. 14 nəfərdən protez və ortez sifarişləri qəbul edilib, 4 nəfərin protezləri təmir edilib, 6 nəfərə müxtəlif protez-ortopedik məmulatlar, eyni zamanda 7 nəfərə tibbi məsləhət, həmçinin 70 nəfərə texniki-bərpa vasitələri, o cümlədən 1 nəfərə əlil arabası, 13 nəfərə eşitmə aparatı, 56 nəfərə isə müxtəlif növ əsalar verilib.

Cari ildə, ümumilikdə, 349 məhdud fiziki imkanlı şəxsə müvafiq səyyar xidmətlər göstərilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# İdman sahəsində təşkil edilən seminarlar davam etdirilir



*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və muxtar respublikanın idman federasiyalarının təşkilatçılığı ilə məşqçi-müəllimlər və idmançılar üçün seminarlar davam etdirilir.*

Bu seminarlardan biri də dünən keçirilib. Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi seminar "Naxçıvan" Universitetinin idman zalında baş tutub. Gənc basketbolçulardan ibarət Azərbaycan yığmasının baş məşqçisi, basketbol üzrə kişilərdən ibarət Azərbaycan millisinin keçmiş kapitanı Tahir Baxşıyev son illər bu idman növünün dəyişən və tətbiq olunan yeni qaydaları barədə məşqçi-müəllimləri və idmançıları məlumatlandırıb.

Məşqçi-müəllimlər üçün təşkil edilən seminarda çıxış edən Basketbol Federasiyasının sədr müavini Ənvər Məmmədov bildirib ki, bu idman növünün muxtar respublikada kütləvi hal alması üçün mütəmadi olaraq yarışlar təşkil edilir. Bu tədbirlərin davamı kimi, basketbol üzrə muxtar respublika çempionatı keçirilir. Həmçinin rayonlarda basketbolun inkişafına böyük önəm verilir. Belə seminarların keçirilməsi məşqçi-müəllimlər üçün mühüm əhəmiyyət kəsb edir. Ümumiyyətlə, bu sahəyə maraq gündən-günə artmaqdadır. Artıq yüzlərlə yeniyetmə və gənc bu sahədə öz bacarığını göstərir.

Gənc basketbolçulardan ibarət Azərbaycan yığmasının baş məşqçisi Tahir Baxşıyev məşqçi-müəllimlərə Azərbaycanda bu idman növünün inkişafı barədə məlumat verib. Diqqətə çatdırılıb ki, basketbolun inkişafı ölkə Prezidenti İlham Əliyevin adı ilə bağlıdır. Belə ki, 2002-ci ilin avqust ayında Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyev basketbol üzrə Olimpiya, Dünya və Avropa çempionu olan məşhur basketbolçu Rimas Kurtinaytisi qəbul edib. Elə həmin ilin sentyabr ayında Kurtinaytis milli yığmaya baş məşqçi təyin olunub. Bu gün Naxçıvanda təşkil edilən seminar məşqçi-müəllimlər, həmçinin basketbolçular üçün əhəmiyyətlidir. Hazırda muxtar respublikada bu növün inkişafı üçün hər bir şərait var və məqsədimiz uşaq və yeniyetmə basketbolçulara, eyni zamanda məşqçi-müəllimlərə basketbolun yeni qaydaları haqda məlumat vermək, bunu praktik olaraq göstərməkdir.

Qeyd edək ki, məşqçi-müəllimlər üçün təşkil edilən seminardan sonra Tahir Baxşıyev basketbolçular üçün də praktik seminar keçib. Seminarda 14 məşqçi-müəllim, 30-a yaxın basketbolçu iştirak edib.

**Ceyhun MƏMMƏDOV**

## 2015-ci ildə Naxçıvan Muxtar Respublikası üzrə soğan yığımı haqqında məlumat

| № | Rayonlar | Əkilən sahə (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner) |
|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 25,0 | 114,6 | 45,8 |
| 2. | Şərur rayonu | 122,0 | 2045,8 | 167,7 |
| 3. | Babək rayonu | 24,0 | 361,4 | 150,6 |
| 4. | Ordubad rayonu | 72,0 | 470,8 | 65,4 |
| 5. | Culfa rayonu | 86,0 | 250,3 | 29,1 |
| 6. | Kəngərli rayonu | 31,0 | 440,4 | 142,1 |
| 7. | Şahbuz rayonu | 29,0 | 276,5 | 95,3 |
| 8. | Sədərək rayonu | 31,0 | 210,3 | 67,8 |
| | Naxçıvan Muxtar Respublikası üzrə cəmi: | 420,0 | 4170,1 | 99,3 |

## 2015-ci ildə Naxçıvan Muxtar Respublikası üzrə qarğıdalı yığımı haqqında məlumat

| № | Rayonlar | Əkilən sahə (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner) |
|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 7,0 | 30,0 | 42,9 |
| 2. | Şərur rayonu | 624,0 | 2504,5 | 40,1 |
| 3. | Babək rayonu | 109,0 | 425,0 | 39,0 |
| 4. | Culfa rayonu | 96,0 | 364,0 | 37,9 |
| 5. | Kəngərli rayonu | 139,0 | 671,0 | 48,3 |
| 6. | Şahbuz rayonu | 6,0 | 24,7 | 41,2 |
| 7. | Sədərək rayonu | 101,0 | 461,6 | 45,7 |
| | Naxçıvan Muxtar Respublikası üzrə cəmi: | 1082,0 | 4480,8 | 41,4 |

***İtmişdir***

Hüseynov Oqtay Ələddin oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Rauf Əliyev

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 885